

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 167 (23.329)

*7 sentyabr 2019-cu il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 6-da türkdilli dövlətlərin xüsusi xidmət orqanlarının rəhbərlərini qəbul edib.

Dövlətimizin başçısı Türkdilli Dövlətlərin Xüsusi Xidmət Orqanları Konfransının növbəti iclasının Bakıda keçirilməsindən məmnunluğunu ifadə edib. İclasın ikitərəfli və çoxtərəfli əməkdaşlığımızla bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığını deyən Prezident İlham Əliyev ölkələrimiz arasında etimada əsaslanan çox sıx qardaşlıq münasibətlərinin mövcud olduğunu deyib. Dövlətimizin başçısı ölkələrimizin xüsusi xidmət orqanları arasında əməkdaşlığın mühüm əhəmiyyət kəsb etdiyini qeyd edərək, bu təmasların təhlükəsizliyin və regional sabitliyin təmin olunmasındakı rolunu vurğulayıb. Azərbaycanın regional əməkdaşlıq proseslərində fəal iştirak etdiyini deyən Prezident İlham Əliyev əlaqələrimizin möhkəmləndirilməsi üçün səylərin bundan sonra da davam etdiriləcəyini bildirib. Dövlətimizin başçısı iclasda müzakirə edilən məsələlərin ölkələrimizin təhlükəsizliyinin möhkəmləndirilməsi işinə xidmət edəcəyinə əminliyini ifadə edib.

Görüşdə çıxış edən qonaqlar Türkdilli Dövlətlərin Xüsusi Xidmət Orqanları Konfransının növbəti iclasının yüksək səviyyədə təşkilinə görə minnətdarlıqlarını bildiriblər və bu tədbirin ölkələrimizin müvafiq qurumları arasında əlaqələrin və sıx əməkdaşlığın daha da genişləndirilməsi işinə töhfə verəcəyini vurğulayıblar.



*İcmal*

## Sosial-iqtisadi inkişafla yanaşı, bütün sahələr üzrə təhlükəsizliyin təmin edildiyi, insan kapitalının formalaşdırıldığı məkan

*Blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikasının sürətli və hərtərəfli yüksəlişi Azərbaycan Respublikasının müstəqillik tarixinin ən böyük nailiyyətlərindən biridir. Buna ulu öndər Heydər Əliyevin siyasətinə dərin sədaqət, böyük əzmkarlıq, gərgin, ardıcıl və səmərəli fəaliyyətin nəticəsində nail olunub. İqtisadi və nəqliyyat əlaqələrinin məhdud olduğu bir şəraitdə mövcud istehsal potensialının hərəkətə gətirilməsi, davamlı quruculuq işlərinin görülməsi, sosial problemlərin səmərəli həlli və ən əsası əhalinin güzəranının yaxşılaşdırılması istiqamətində atılan addımlar isə yurda bağlılığın, Vətənə, dövlətə, xalqa sevginin misilsiz nümunəsidir.*

Sevindirici haldır ki, Naxçıvanın inkişafı, yüksəlişi və təhlükəsizliyinin təmini istiqamətində görülən işlər davamlı xarakter alıb. Məhz bunun nəticəsidir ki, bu gün muxtar respublika sakinləri blokadanın yaratdığı çətinlikləri real həyatlarında hiss etmirlər. Uzun illərdən bəri Naxçıvanın ölkəmizin əsas hissəsi ilə nəqliyyat əlaqələrinin kəsilməsi fonunda bu sahədə həyata keçirilən kompleks tədbirlər insanların rahatlığının təmininə hesablanmış mühüm dövlət siyasətinin tərkib hissəsidir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən Naxçıvan Beynəlxalq Hava Limanı üçün yeni uçuş-enmə zolağının inşası isə artan yük və sərnişin tələbatının ödənilməsinə, eləcə də muxtar respublikada mülki aviasiya sahəsində işlərin uğurla həyata keçirilməsinə imkan verəcəkdir.

Avqustun 2-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov və "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin prezidenti Cahangir Əsgərov Naxçıvan Beynəlxalq Hava Limanının yeni uçuş-enmə zolağında görülən işlərlə maraqlanıblar.

Ali Məclisin Sədri uçuş-enmə zolağının inşasında əməyi olanlara təşəkkürünü bildirib, keyfiyyətin bundan sonra da diqqətdə saxlanılması barədə tapşırıqlar verib.

Qeyd etdiyimiz kimi, blokada vəziyyətində olan Naxçıvanın hava nəqliyyatı əlaqələrinin etibarlı təmini mühüm əhəmiyyət kəsb edir. Belə ki, muxtar respublikanın turizm sektoru bu gün özünün inkişaf dövrünü yaşayır. Qədim diyarımızın paytaxtı ilə yanaşı, rayonlarının, hətta ən ucqar dağ kəndlərinin də abadlaşması, burada nəqliyyat-kommunikasiya sisteminin bərpası, mühüm sosial məsələlərin həlli, tarixi abidələrə yenidən həyat verilməsi, xidmət sektorunun canlanması, eyni zamanda davamlı sabitlik turizmin genişlənməsinə əsaslı zəmin yaradıb. Turistlərin daha çox hava nəqliyyatına üstünlük verməsini nəzərə alsaq, bu zaman artan tələbat fonunda Naxçıvan Beynəlxalq Hava Limanında yeni uçuş-enmə zolağının inşasının nə qədər əhəmiyyətli olduğunu görərik.

Digər tərəfdən Naxçıvanın istehsal potensialının artması, ixrac imkanlarının daha da genişlənməsi də bu məsələnin əhəmiyyətini ön plana çıxarır. Əlverişli iqtisadi-coğrafi mövqedə yerləşən muxtar respublikanın sivilizasiyaların qovşağında, Transqafqaz nəqliyyat dəhlizinin mərkəzində yer alması burada nəqliyyat infrastrukturunun hər il daha da gücləndirilməsini zəruri edir. Yeni uçuş-enmə zolağının inşası bu baxımdan da çox önəmlidir.

Muxtar respublikada mütərəqqi suvarma şəbəkələrinin qurulması torpaq və su ehtiyatlarından səmərəli istifadəyə, eləcə də yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması isə digər bir təhlükəsizlik məsələsinin – ərzaq təhlükəsizliyinin həllinə yönəlmiş əhəmiyyətli işlərdəndir. Onu da qeyd etmək yerinə düşər ki, diyarımızda torpaqlar şoranlaşmaya meyillidir. Ona görə də əkinçilikdə şırım üsulunun tətbiqi və qapalı suvarma şəbəkələrinin qurulması vacibdir. Son illər Babək, Culfa və Kəngərli rayonlarında 5 min hektara yaxın sahədə qapalı suvarma şəbəkəsi qurulub. Görülən işlərin davamı olaraq avqustun 8-də Kəngərli rayonunun Yurdçu kəndində yeni qapalı suvarma şəbəkəsinin açılışı olub.

Tədbirdə iştirak edən Ali Məclisin Sədri Yurdçu kəndində 108 hektar pay torpağını və Qıvraq qəsəbəsində 9 hektar bələdiyyə torpağını əhatə edən qapalı suvarma şəbəkəsinin istifadəyə verilməsini əlamətdar hadisə kimi dəyərləndirib, bu münasibətlə sakinləri təbrik edərək deyib: ***"Torpaqların əkilməsi hər bir ölkənin inkişafında və ərzaq təhlükəsizliyinin təmin olunmasında vacib məsələlərdəndir. Muxtar respublikada da yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması, onların su təminatının yaxşılaşdırılması diqqət mərkəzində saxlanılır. Çünki muxtar respublikanın 5,5 min kvadratkilometr ərazisinin cəmi 161 min hektarı əkinəyararlı torpaqlardır. Hazırda həmin torpaqların 62 min hektara yaxınında əkin aparılır ki, onun da 51 min hektarı suvarılan ərazilərdir".***

Çıxışında digər mühüm məsələlərə də toxunan Ali Məclisin Sədri qeyd edib ki, muxtar respublikada mütərəqqi suvarma şəbəkələrinin qurulması və yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması ərzaq təhlükəsizliyinin təmin olunması ilə yanaşı, həm də əhalinin məşğulluğunun təmin edilməsinə şərait yaradır. Yurdçu kəndində qapalı suvarma şəbəkəsinin qurulması da torpaq mülkiyyətçilərinin pay torpaqlarından səmərəli istifadə etməsinə, məşğulluğun təmin olunmasına və bol məhsul istehsalına imkan verəcəkdir. Ümumilikdə isə muxtar respublikada həyata keçirilən tədbirlər nəticəsində əkin sahələrinin genişləndirilməsi daxili bazarda yerli məhsulların miqdarının artmasına, idxalın azalmasına, bu sahəyə yönəldilən vəsaitin ölkə daxilində qalmasına, nəticə etibarilə ümumi iqtisadi inkişafa müsbət təsirini göstərəcəkdir.

Ali Məclisin Sədri Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin əməkdaşları tərəfindən qapalı suvarma şəbəkəsinin keyfiyyətlə qurulmasında əməyi olanlara təşəkkürünü bildirib, onlara hədiyyələr təqdim edib və suvarma şəbəkəsini işə salıb.

Sonra Ali Məclisin Sədri qapalı suvarma şəbəkəsinin əhatə etdiyi sahənin əkilməsi, torpaq mülkiyyətçilərinin keyfiyyətli toxum sortları ilə təmin olunması və ərazidə qoruyucu yaşıllıq zolaqlarının salınması barədə tapşırıqlar verib.

Yeri gəlmişkən, onu da qeyd edək ki, son illərdə Kəngərli rayonunda qurulan qapalı suvarma şəbəkələri min hektarlarla torpağı əkin dövriyyəsinə qatıb. Belə ki, bu il rayonda 180 hektara yaxın sahədə qapalı suvarma şəbəkəsi qurulub. Hazırda Şahbuz rayonunun Türkeş kəndində də 300 hektara yaxın ərazidə qapalı suvarma şəbəkəsinin qurulması, Külüs kəndində isə 400 hektar ərazini əhatə edəcək nasos stansiyasının tikintisi aparılır. Bütün bunlar belə deməyə əsas verir ki, muxtar respublikada əkin dövriyyəsinə qatılacaq ərazilərin sayı ildən-ilə daha da artacaqdır.




Naxçıvanda əhalinin sosial müdafiəsi sahəsində həyata keçirilən tədbirlər xüsusi qayğıya ehtiyacı olan şəxsləri də əhatə edir. Sağlamlıq imkanları məhdud Azərbaycan Vətən Müharibəsi iştirakçıları və şəhid ailələri mənzillər və minik avtomobilləri ilə təmin olunur, onların sağlamlığının bərpası istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Təkcə 2019-cu ilin ötən dövründə 481 sağlamlıq imkanları məhdud şəxsin bərpa mərkəzlərində müalicələri təşkil edilib, 278 şəxsə sanatoriya və müalicə pansionatlarına göndəriş verilib, 8 nəfərə minik avtomobili, 12 ailəyə fərdi yaşayış evi və mənzil təqdim olunub.

Avqustun 9-da – müqəddəs Qurban bayramı ərəfəsində Azərbaycanın ərazi bütövlüyünün müdafiəsi zamanı sağlamlıq imkanları məhdudlaşmış 2, hərbi xidmət vəzifəsinin icrası zamanı sağlamlığını itirmiş 2 və Çernobıl Atom Elektrik Stansiyasında baş vermiş qəzanın aradan qaldırılmasında iştirak edən 1 nəfərə fərdi yaşayış evi və mənzillər təqdim olunub, eyni zamanda sağlamlıq imkanları məhdud Azərbaycan Vətən Müharibəsi iştirakçısına, hərbi xidməti vəzifəsinin icrası zamanı sağlamlığını itirmiş şəxsə və Çernobıl qəzasında sağlamlığını itirmiş 1 nəfərə "NAZ-Lifan-320" markalı minik avtomobili verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov fərdi yaşayış evi, mənzil və avtomobillə təmin olunanları təbrik edərək deyib: ***"Azərbaycanda vətən qarşısında xidməti borclarını layiqincə yerinə yetirmiş şəxslər hərtərəfli dövlət qayğısı ilə əhatə olunmuşlar. Bu gün fərdi yaşayış evi, mənzil və avtomobil təqdim olunanlar da xidməti vəzifələrini layiqincə yerinə yetirmiş, vətənpərvərlik nümunəsi göstərmiş şəxslərdir. Bunlar o yerdə baş verir ki, həmin ölkədə dövlət-xalq birliyi vardır. Dövlət xalqına arxalanır, xalq isə dövlətinə inanır. Belə olan halda isə hər bir şəxs dövləti qarşısında öz xidməti borcunu layiqincə yerinə yetirməyə çalışır".***

Sonra Ali Məclisin Sədri fərdi yaşayış evi və mənzillərin orderlərini, eləcə də minik avtomobillərinin açarlarını təqdim edib.

Blokada vəziyyətində yaşayan diyarımızda enerji təhlükəsizliyinin təmin olunması da mühüm əhəmiyyət kəsb edir. Bu məqsədlə alternativ və bərpa olunan enerji mənbələrindən istifadəyə üstünlük verilməsi isə həm ətraf mühitin qorunması, həm də iqtisadi səmərəlilik baxımından diqqəti cəlb edir. Son illər Babək rayonunda 22, Kəngərli rayonunda 2 meqavat gücündə Günəş Elektrik stansiyaları tikilib. Hazırda Araz çayı üzərində Su Elektrik Stansiyasının inşası davam etdirilir. Bütün bunlar enerji təminatını yaxşılaşdırmaqla yanaşı, Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin gəlirlərini də artırır və bu sahənin daha da müasirləşdirilməsinə imkan verir. Dövlət Energetika Xidmətinin gəlirləri hesabına Kəngərli rayonunun Qabıllı kəndində 3 meqavatlıq yeni


*Ardı 2-ci səhifədə*

Günəş Elektrik Stansiyasının inşa olunması bir daha bunu təsdiq edir.

Avqustun 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidməti ilə İsveçrənin "Pure Energy Development" SARL Şirkəti arasında həmin Günəş Elektrik Stansiyasının qurulması barədə müqavilə imzalanıb.

Aparılan təhlillər bir daha sübut edir ki, dünyanın hər bir yerində ölkənin inkişafının yeni mərhələsi təhsillə üzvi şəkildə bağlıdır. Çünki təhsil fərdləri müasir dövrün çoxşaxəli çağırışlarına hazırlayır, verdiyi əsaslı bilik və bacarıqlarla onların arzu və amallarının həyata keçirmələrinə yol açır, cəmiyyət həyatında fəal iştirak edən düşüncəli vətəndaş kimi yetişdirir. Bu mənada, əminliklə demək olar ki, təhsil strateji əhəmiyyətli fəaliyyət sahəsi kimi ölkənin, diyarın siyasi-iqtisadi, sosial və mədəni inkişafını müəyyən edir. Qloballaşan dünyada yaşadığımız innovativ və dayanıqlı inkişaf dövrü yeni nəsildən daha mükəmməl təhsil almağı, elmi biliklərə və peşələrə dərindən yiyələnməyi tələb edir. Sevindirici haldır ki, bu məsələlər Naxçıvanda xüsusilə diqqət mərkəzində saxlanılır. Muxtar respublikada aparılan uğurlu təhsil siyasətinin nəticəsidir ki, ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplayan tələbələrin sayı ildən-ilə daha da artır.

Avqustun 19-da Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərini bitirərək ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplamış tələbələrlə görüş keçirilib.

Ali Məclisin Sədri Naxçıvan Muxtar Respublikasında ali və orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanlarının uğurla başa çatması münasibətilə tələbə adını qazanan məzunları, onların valideynlərini və bütün təhsil ictimaiyyətini təbrik edib. Ali Məclisin Sədri çıxışında təhsil strategiyasının əsas istiqamətlərini vurğulayıb, qarşıda duran vəzifələr barədə danışaraq deyib: ***"Muxtar respublikamızda gənclər siyasətinin əsasını gələcəyin qurucuları olan yeni düşüncəli nəslin formalaşdırılması, milli ruhlu, vətənpərvər gənclərin hazırlanması təşkil etməlidir. Aparılan siyasət gənclərimizə öz tarixi keçmişini aşılamalı, mənəvi kamilliyə və əqidə saflığına xidmət etməlidir. Təhsil siyasətinin mühüm prinsipləri gənclərin milli dəyərlər əsasında tərbiyələndirilməsi, mənəvi cəhətdən sağlam və iradəli gəncliyin yetişdirilməsi olmalıdır..."***

Ali Məclisin Sədri tələbə adını qazanmış hər bir gəncə ümummilli lider Heydər Əliyevin dövlətçilik məktəbindən öyrənməyi, Azərbaycançılıq ideologiyasına, milli dəyərlərimizə bağlı, yeni fikirli, müasir gənclər kimi müstəqil Azərbaycan naminə fəaliyyət göstərməyi arzulayıb.

Tədbirdə ali məktəblərə qəbul imtahanlarında 500-700 arası bal toplayaraq tələbə adını qazanmış məzunlara "Naxçıvan: Şərqin əfsanəsi" kitabı və pul mükafatı təqdim olunub.

*Bu gün qürurla deyə bilərik ki, muxtar respublikada sosial-iqtisadi inkişafa paralel olaraq müstəqil dövlətçiliyimizin siyasi-ideoloji mövqeyinin, Azərbaycançılıq ideyalarının daha da inkişaf etdirilərək möhkəmləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər sistemli və ardıcıl xarakteri ilə səciyyələnir. Bu, vətənpərvər və bilikli nəsillərin formalaşmasına əhəmiyyətli töhfə verir. Muxtar respublikada bütün sahələrdə əldə edilən nailiyyətlərin əsasında isə düşünülmüş və məqsədyönlü siyasət, böyük dövlətçilik konsepsiyasının qətiyyətlə həyata keçirilməsi dayanır. Qəbul edilən dövlət proqramları, strategiya xarakterli sənədlər, onların əməli icrası bu siyasətin reallaşdırılması mexanizmi kimi vacib əhəmiyyət kəsb edir. Mövcud olan monolit birlik, yorulmaz fəaliyyət diyarımızı bir sıra mühüm məsələlərin öz həllini tapdığı, inkişaf etmiş insan kapitalına, mühafizə edilən sağlam ətraf mühitə və hər bir sakin üçün geniş imkanlara malik məkana çevirib.*

Rauf KƏNGƏRLİ

## Azərbaycanın 8 rayonundakı 40 kəhrizdə aparılacaq bərpa işlərində Naxçıvandakı təcrübədən istifadə olunacaq



Bu günlərdə Beynəlxalq Miqrasiya Təşkilatının nümayəndə heyəti, Azərbaycan Dövlət Aqrar Universitetinin müəllimləri, Qanat və Tarixi Hidravlik Strukturlar üzrə Beynəlxalq Mərkəzin mütəxəssisləri muxtar respublikada kəhrizlərin bərpasında qazanılan təcrübənin öyrənilməsi məqsədilə Naxçıvanda səfərdə olublar. Səfər çərçivəsində Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsində qonaqlara məlumat verilib ki, muxtar respublikada əhalinin su ilə təmin olunması üçün 31 su anbarı tikilib, 100-dən artıq nasos stansiyaları quraşdırılıb. Qeyd olunub ki, muxtar respublikada 386 kəhriz var. Həmin kəhrizlərin 335-i işlək vəziyyətdədir. Hazırda Kəngərli və Ordubad rayonlarında 5 kəhrizdə təmir işləri aparılır.

Səfər müddətində qonaqlar Kəngərli rayonunun Çalxanqala kəndində Baş bulaq, Qarabağlar kəndində Torxuc, Bəydilli, Bostanlar-1 və digər kəhrizlərdə aparılan təmir işləri ilə tanış olublar. Onlar, həmçinin Ordubad rayonunun Yuxarı Əylis kəndində Bəylələv, Aşağı Əylis kəndində Çiçək, Ordubad şəhərindəki Qırxpillə, Töyənək, Məmməd Sadiq, Hacı Əhməd və Hacı Fəttah kəhrizlərində aparılan təmir-bərpa işləri, eləcə də kəhriz sistemlərinin quruluşu, tarixi ilə yaxından maraqlanıblar.

Səfər çərçivəsində nümayəndələr Naxçıvan Dövlət Universitetində də olublar.

Qonaqların Naxçıvan şəhərindəki Qələndər, Kalba Musa, Naxçıvanqala kəhrizləri ilə tanışlığı da maraqlı anlarla yadda qalıb. Onlar "Şərq qapısı" qəzetinə müsahibələrində səfərlərinin məqsədi və mahiyyəti barədə danışıblar.

***Vladimir Georgiev – Beynəlxalq Miqrasiya Təşkilatının Azərbaycandakı nümayəndə heyətinin rəhbəri:*** –



Səfərimizin məqsədi Beynəlxalq Miqrasiya Təşkilatı ilə yerli orqanlar tərəfindən bərpa edilən kəhrizlərlə yaxından tanış olmaq, təcrübələrdən yararlanmaq, eləcə də Azərbaycan Dövlət Aqrar Universitetinin müəllimləri ilə birlikdə qarşılıqlı təcrübə mübadiləsi aparmaqdır. Burada öyrəndiklərimiz əsasında Azərbaycanın 8 rayonundakı 40 kəhrizdə bərpa işləri görüləcək.

Onu da deyim ki, Beynəlxalq Miqrasiya Təşkilatı Naxçıvanda 120-dən artıq kəhrizin bərpasında iştirak edib. Layihənin həyata keçirilməsinin səbəblərindən biri də muxtar respublikada bunun üçün hərtərəfli şəraitin yaradılmasıdır. Əminik ki, əhalinin həmin kəhrizlərdən düzgün istifadə edərək qoruyub saxlaması onların daim işlək vəziyyətdə olmasını təmin edəcəkdir.

Çox məmnunuq ki, Azərbaycanın belə gözəl və qədim regionuna gəlmişik. Mən ilk dəfədir Naxçıvana səfər edirəm. Bu diyarla tanışlığım mənə yüksək təəssüratlar bağışladı. Buranın qeyri-adi təbiəti, dadlı yeməkləri var. İstərdim ki, qədim diyarınıza bir daha səfər edim.

***Hüseyn Qafuri – Qanat və Tarixi Hidravlik Strukturlar üzrə Beynəlxalq Mərkəzin direktor əvəzi:*** – Biz Gəncə şəhərindən sonra muxtar respublikaya səfər edərək buradakı kəhrizlərlə tanış olduq. Bilirik ki, bu diyarda ən yaxşı kəhrizlərdən düzgün istifadə təcrübəsi vardır. Naxçıvanda kəhriz sistemləri çox böyükdür və əminik ki, bu sistemlər bundan sonra da inkişaf etdiriləcək gələcək nəsillərə çatdırılacaq. Qədim diyarda kəhrizlərin bərpası, idarə olunması layihələrinin həyata keçirilməsi təcrübəsini öyrənmək, eləcə də bu sistemlərin tarixi, təmiri və yenilənməsi barədə məlumatları əldə etmək bizim üçün çox əhəmiyyətlidir. Biz burada öyrəndiklərimizi digər yerlərdə tətbiq edəcəyik.



***Mirnaib Mirsalahov – Azərbaycan Dövlət Aqrar Universitetinin professoru:*** – Naxçıvana səfərimiz çərçivəsində Qələndər, Kalba Musa və digər kəhrizlərdə olduq, bu su mənbələrinin çıxışının necə gözəl memarlıq üslubunda işləndiyini gördük. Həqiqətən də, bu diyarda turizmi inkişaf etdirmək, turistlərdə maraq yaratmaq üçün kəhrizlərin mövcudluğu, onların bərpası olduqca vacib məsələlərdəndir. Naxçıvanda bizi yüksək qonaqpərvərliklə qarşıladılar. Yaradılan şəraitə, mehriban münasibətə görə minnətdaram.



***Macid Labbaf – baş ekspert:*** – Biz üç gün ərzində Naxçıvanda kəhriz sistemləri ilə yaxından tanış olduq. Səfərimiz çox maraqlı keçdi, bizi xüsusi qonaqpərvərliklə qarşıladılar. Bu diyarda kəhrizlərin təmiri, qorunub saxlanılması çox təqdirəlayiq haldır. Naxçıvan, bu mənada, fərqlənən yerlərdəndir. Diqqətimi çəkən əsas məqamlardan biri də burada birgə addımların atılmasıdır. Yəni həm dövlətin dəstəyi, həm də sakinlərin bu sahəyə diqqəti çox yaxşıdır. Burada, həmçinin qeyri-adi kəhrizlərin də şahidi olduq. İstərdik ki, gələcəkdə də əməkdaşlığımız davam etsin.



Nail ƏSGƏROV

"Ailə təsərrüfatları ili" – 2019

## Ailə təsərrüfatlarına qayğı iqtisadiyyatın inkişafına müsbət təsir göstərir

*Bu gün dünyanın bir çox inkişaf etmiş ölkələrində özəl sektorun əsası ailə təsərrüfatı və ailə biznesləri üzərində qurulur. Ailə üzvlərinin iştirak etdiyi bu təsərrüfat modeli respublikamızın bütün bölgələrində, o cümlədən də muxtar respublikanın rayonlarında biznes sahəsinə çevrilməkdədir. Bu baxımdan Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 22 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatının inkişafı ilə bağlı Tədbirlər Planı" mühüm əhəmiyyətə malikdir. Plana uyğun olaraq ailə təsərrüfatlarının biznes planı tərtib olunur, onlara güzəştli şərtlərlə kreditlər və müxtəlif təyinatlı kənd təsərrüfatı texnikaları verilir.*





Sərhəd bölgəmiz olan Sədərək rayonu da bu qayğılarla əhatə edilib. Coğrafi mövqe baxımından rayonda kənd təsərrüfatının – heyvandarlığın, əkinçiliyin, bağçılığın, arıçılığın, meyvəçiliyin inkişafı üçün ucsuz-bucaqsız örüş sahələrinin və əkinəyararlı torpaqların olması ailə təsərrüfatına töhfə verən amillərdəndir. Torpaq adamlarına dövlət tərəfindən verilən güzəştli kreditlər kiçik və orta sahibkarlıq fəaliyyətinə marağı artırır.

Rayon İcra Hakimiyyəti başçısının müavini Mahirə Adnayeva ilə söhbət zamanı müsahibim bildirdi ki, muxtar respublikada "Ailə təsərrüfatları ili" elan olunan 2019-cu ildə Ali Məclis Sədri tərəfindən müvafiq sərəncamla təsdiq edilən Tədbirlər Planına uyğun olaraq kənd təsərrüfatı məhsullarının istehsalçıları vergi tutulmalarından azad edilirlər və onların maarifləndirilməsi işi diqqət mərkəzində saxlanılır. Hazırda ölkəmizdə kənd təsərrüfatı məhsullarının istehsalçıları torpaq vergisi istisna olmaqla, digər vergilərdən azaddırlar. 2001-ci ildən 5 il müddətinə tətbiq edilən və indiyədək 4 dəfə müddəti uzadılan bu güzəştlər 2024-cü ilədək qüvvədə olacaq. Bundan başqa, kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan hüquqi şəxslərin də bu fəaliyyətdən əldə etdiyi gəlirləri mənfəət vergisindən azad edilib. Ölkədə aparılan sosial-iqtisadi inkişaf proqramlarına uyğun olaraq bütün istehsal və sənaye sahələri üzrə güzəştlər davam etdirilir.

Müsahibimin sözlərinə görə, Sədərək rayonunda da kənd təsərrüfatının inkişafı istiqamətində həyata keçirilən tədbirlər dövlət proqramlarının uğurlu icrası, müasir texnologiyaların tətbiqi, subsidiyaların və güzəştli şərtlərlə kreditlərin verilməsi müxtəlif təsərrüfat sahəsinin inkişafında mühüm rol oynayır. Bu da insanların torpağa bağlılığını artırır. Kəndlərdə yaşayan əhali özünüməşğulluq proqramlarına cəlb edilir. İstehsal etdikləri məhsullardan ruzi-bərəkət götürür, torpağı özlərinə daimi iş yeri sayır, dövlət dəstəyi və qayğısından istifadə edərək yaşayış səviyyələrini yaxşılaşdırırlar. Rayonun əkinçilik, heyvandarlıq, bağçılıq, bostançılıq, arıçılıq təsərrüfatlarında qazanılan uğurlar ildən-ilə artır. Cari ildə də yüksək nəticələrə nail olunub. Belə ki, taxılçılar 2472 hektar taxıl zəmisindən 8788 ton məhsul toplayıblar. Bu da orta məhsuldarlığın 35,6 sentner olması deməkdir. Onu da diqqətinizə çatdırım ki, artıq bir neçə ildir, Sədərək rayonu taxıl tədarükündə liderliyi əldə saxlayır. Bu məsələdə ailə təsərrüfatlarının rolu böyükdür.

Mahirə Adnayeva onu da bildirdi ki, rayonun ailə və fermer təsərrüfatı ilə məşğul olan sahibkarları Fuad Qədimov, Qafar Zeynalov, Nurəddin Əliyev əkdikləri hər hektar taxıl zəmisindən 40 sentner məhsul götürüblər.

Kənd adamları həmişə halal zəhmətdən güc və zövq alırlar. İllik ruzilərini əkinçilikdən, heyvandarlıqdan, bağ-bağçalarının məhsullarından əldə edirlər. Sədərək rayonunda hara üz tutsaq, orada zəhmətkeş insanların müxtəlif növ ailə təsərrüfatı işləri ilə məşğul olduqlarını görərik.

Mahirə Adnayeva deyir ki, rayon əhalisinin ərzaq məhsullarına olan tələbatı yerli istehsal hesabına təmin edilir. İstehsal olunmuş məhsulların satışı ilə bağlı keçirilən yarmarkalar, festivallar belə təsərrüfatların inkişafına hərtərəfli şərait yaradır. Hazırda bölgədə xeyli ailə təsərrüfatı var. Onların sırasında Mehparə Hüseynovanın ailə təsərrüfatını da qeyd etmək yerinə düşər. Mehparə xanım öz təsərrüfatında yüz əllidən çox adda kənd təsərrüfatı məhsulu istehsal edərək satışa çıxarır. Bunlardan Naxçıvan bölgəsinə xas olan turşular, şorabalar, mürəbbələr, kompotlar, göyərti və meyvə quruları, əriştə, Sədərək çörəyi və bir çox məhsulların adını çəkmək olar.

İcra başçısının müavini deyir ki, Sədərək rayonunda ailə biznesinin inkişafı tam dövlət qayğısı əhatəsindədir. Bunun nəticəsidir ki, əhalinin gəlirləri artır və büdcəyə daxil olan vəsaitin miqdarı getdikcə yüksəlir. O da xüsusi qeyd edilməlidir ki, Sədərək rayonunda özünüməşğulluğun təmin olunması diqqətdə saxlanılıb. Bunun ifadəsidir ki, son 1 ildə 27 ailəyə yanı balalı, iribuynuzlu və xırdabuynuzlu mal-qara verilib. Hər bir buzov üçün dövlət tərəfindən 100 manat subsidiyanın verilməsi belə təsərrüfatların inkişafında böyük əhəmiyyət daşıyır. Bununla yanaşı, rayonda arıçılıq təsərrüfatı ilə də məşğul olan ailələr var ki, onlar dövlətdən hər bir arı ailəsi üçün 10 manat subsidiya alıblar. Sədərəkdə həm də bostançılıq təsərrüfatı geniş yayılıb. Bu sahənin inkişafı, keyfiyyətli yerli məhsulun yetişdirilib satışa çıxarılması bazarlarda məhsul bolluğu yaradıb. Belə ailə təsərrüfatçılarından Ərrəhman Əliyevin, Tarverdi Əliyevin adlarını çəkmək yerinə düşər.

Sədərək rayonunda ailə təsərrüfatlarının inkişafı məşğulluğa öz müsbət təsirini göstərərək əhalinin gəlirlərini xeyli artırıb. Nəticədə, bölgədə ailə təsərrüfatı ilə məşğul olanların sayı gündən-günə çoxalır, əhalinin güzəranı, rifah halı ildən-ilə yaxşılaşır.

Muxtar MƏMMƏDOV

*Təhsil millətin gələcəyidir*

# Elm, təhsil insanı yüksəldən mənəvi ucalıqdır

*Əməksevər bağban üçün min bir zəhmətini çəkdiyi ağacın bar-bəhəri necə qiymətlidirsə, elmi, təhsili, nailiyyətləri ilə baş ucalığı gətirən övlad da valideyn üçün o qədər dəyərli və qürurvericidir. Bu mənada, böyük filosoflar da əbəs yerə elmsiz adamı meyvəsiz ağaca bənzətmirlər. Bəli, uşaq dünyaya göz açandan bəri hər əziyyətinə qatlaşan, üzərində "yarpaq kimi əsən" valideyn üçün dünyada ən gözəl hədiyyə övladının qazandığı uğurlardır. Təbii ki, uğurlu gələcəyin möhkəm təməli təhsildən asılıdır. Məhz buna görədir ki, övladının gələcəyini düşünən qayğıkeş ata və ana ona verəcəyi ən böyük hədiyyənin təhsil olduğunu düşünür. Çünki müasir dövrdə yalnız təhsilli, savadlı insan həyatda özünə mövqe tutur, gələcəyi haqqında planlar quraraq istəyinə çatmağı bacarır...*



Muxtar respublikamızda hər il ali məktəblərə keçirilən qəbul imtahanlarından sonra yüzlərlə ailəyə bu sahədə qazanılan uğurlardan pay düşür. Builki qəbul imtahanlarında əldə olunan nəticələr Babək rayonunun Cəhri kəndində yaşayan Axundovlar ailəsinə də böyük qürur və sevinc hissi bəxş etdi. Ailənin kiçik övladı Abdulla Axundzadə imtahandan 674 bal toplamaqla bacısı Aytac kimi valideynlərinin ümidlərini doğrultdu.

Onun barəsində qısaca məlumat verərək deyim ki, Abdulla Axundzadə 2002-ci il mayın 10-da Babək rayonunun Cəhri kəndində ziyalı ailəsində dünyaya göz açıb. Anası Hədiyyə xanım yaşadıqları kənddə fəaliyyət göstərən 1 nömrəli tam orta məktəbdə ibtidai sinif müəllimi işlədiyi üçün hər iki övladının təhsili ilə daha yaxından maraqlanmaq imkanı olub. Abdulla məktəbdə oxuyarkən fəallığı ilə müəllimlərinin diqqətini çəkir, keçirilən bilik yarışlarında hazırcavablıq nümayiş etdirərək müvəffəqiyyətlər qazanır. 2014-cü ildən Abdulla Naxçıvan şəhərindəki Heydər Əliyev adına tam orta məktəbdə təhsilini davam etdirir. Burada da öz istedadı, biliyi ilə şagird yoldaşları arasında fərqlənməyi bacarır. O, sınaq imtahanlarında yüksək bal toplayaraq müəllimlərinin onun gələcəyinə olan etimadını daha da artırır. Abdulla məktəbdaxili bilik yarışlarında və müsabiqələrdə də qalib adını qazanaraq diplom, fəxri fərman və qiymətli hədiyyələrə layiq görülür. O, fizika üzrə keçirilən fənn olimpiadalarında uğurla iştirak edərək 2018-ci ildə muxtar respublika ikincisi, 2019-cu ildə isə muxtar respublika birincisi və ölkə ikincisi olur. Heydər Əliyev adına tam orta məktəbi "Qızıl" medalla bitirən Abdulla Axundzadə ən böyük nəticəni isə 2018-2019-cu tədris ilində keçirilən qəbul imtahanlarında göstərir. Belə ki, I ixtisas qrupu üzrə keçirilən birinci imtahanda 658 balı qənaətbəxş hesab etməyən Abdulla ikincisində 674 bal toplamaqla təkcə valideyn və müəllimlərinin deyil, muxtar respublikanın fəxrinə çevrilib. O, Bakı Ali Neft Məktəbinin Proseslərin avtomatlaşdırılması mühəndisliyi ixtisasına qəbul olub.

Hər il olduğu kimi, bu il də muxtar respublika rəhbəri yüksək bal toplayan tələbələrlə görüş keçirərək onları təbrik edib, qiymətli hədiyyə və pul mükafatı verib. Tələbələrə təhsillərində uğurlar arzulayıb. Abdulla Axundzadə də builki qəbul imtahanlarında muxtar respublika üzrə ikinci ən yüksək nəticə göstərən tələbə kimi həmin mötəbər tədbirdə iştirak edib.

Ailəyə bəxş olunan böyük sevinci bölüşən anası Hədiyyə xanım dedi ki, Abdulla başımızı qohum-əqrəba arasında uca edib, müəllimi olduğum Cəhri kənd 1 nömrəli tam orta məktəbin pedaqoji kollektivindən eşitdiyim xoş sözlər bir valideyn kimi məni çox qürurlandırır. Onu da deyim ki, üç il bundan öncə qızım Aytac da 606 bal toplayaraq Azərbaycan Tibb Universitetinin Müalicə işi ixtisasına qəbul olub. Həmin vaxt Abdulla da yüksək bal toplayacağına söz vermişdi və vədinə əməl etməklə ailəmizin sevinc payını artırdı. Seçdiyi ixtisasa gəldikdə isə o, hələ 6-7-ci siniflərdə oxuyarkən "Mən böyüyəndə informasiya texnologiyaları üzrə mütəxəssis olacağam", – deyərək özünü bu sahədə püxtələşdirmək üçün mütəmadi olaraq kompüterdə çalışırdı. Lakin atası da, mən də məktəb dərslərindən geri qalmasın deyə, onu bir neçə il kompüterdən, internetdən uzaq saxlamağa çalışdıq və şükürlər olsun ki, istədiyimiz nəticəni əldə edə bildik.

Hazırda Bakı şəhərində tələbəsi olduğu ali məktəbə getməyi səbirsizliklə gözləyən Abdulla Axundzadə ilə telefon əlaqəsi saxladıq. O dedi: – Hələ uşaq yaşlarımda valideynlərimin mənim və bacımın üzərində çəkdikləri zəhməti görəndə özümə söz vermişdim ki, məktəbdə yaxşı oxuyub onları peşman etməyəcəyəm. İmtahanda uğur qazanmağımda müəllimlərimin də əməyini heç vaxt unutmaram. Seçdiyim ixtisasa uşaqlıqdan həvəsim böyük olub, kompüter proqramları hazırlamağın yollarını öyrənməyə çalışmışam. Gələcəkdə ən böyük arzum müasir texnologiyalar üzrə mühəndis kimi yetişərək bu sahədə ölkəmizə fayda verməkdir.

Onu da deyim ki, muxtar respublika rəhbəri ilə tələbələrin görüşündə iştirakım həyatımın ən gözəl anı kimi yaddaşıma həkk olundu. Onun biz tələbələrə verdiyi tövsiyələr gələcəkdə atacağım addımlarda böyük stimul olacaq. Belə xoş əhval-ruhiyyə ilə artıq dərslərin başlamasını gözləyirəm. İnanıram ki, bundan sonra da uğurlarım çox olacaq.

Abdulla Axundzadənin məzunu olduğu Heydər Əliyev adına tam orta məktəbin direktoru, Azərbaycan Respublikasının Əməkdar müəllimi Namiq Məmmədov söhbət zamanı bildirdi ki, təhsil ocağı fəaliyyət göstərdiyi müddətdə daim yüksək nəticələri ilə seçilib, hər il buranı bitirən onlarla məzun ölkəmizin qabaqcıl ali və orta ixtisas təhsili müəssisələrinin tələbəsi adını qazanır. Abdulla Axundzadə isə ən yüksək balı toplayaraq təhsil müəssisəsinin adını daha da yüksəklərə qaldırıb. Məktəbdə fizika fənnini tədris edən Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi Ruqiyyə Zeynalova da bir müəllim kimi şagirdi ilə fəxarət duyduğunu dedi: – Ötən illər ərzində uğur qazanan, ali məktəblərə qəbul olan şagirdlərim çox olub. Abdullanın da yüksək bal topladığını eşidəndə qürur hissi keçirdim. Ona dərs deyən gündən fizikaya hədsiz marağını hiss etmişdim, elə həmkarlarım da bu uşağın gələcəyinin parlaq olacağını deyirdilər və nəticə də göz qabağındadır. O təkcə dərslərində göstərdiyi fəallığı ilə yadda qalmayıb, həm də məktəbimizin ictimai işlərində də yaxından iştirak edib, nümunəvi davranışı ilə seçilib.

Elm, təhsil insanı yüksəldən mənəvi ucalıq, bəşəriyyəti kamilliyə aparan yoldur. Fərəhli haldır ki, hər il Abdulla Axundzadə kimi yüzlərlə Naxçıvan gənci yolunu elmdən, təhsildən salaraq dövlətimiz üçün savadlı kadr kimi yetişməyə çalışır. İnanırıq ki, gələn tədris illərində də bu uğurlar artan templə davam edəcək.

# Məktəbli yarmarkasında alıcı məmnuniyyəti əsas şərtdir

*Daha bir uzun və mənalı yay istirahəti arxada qalır. Qarşıdan isə məktəblilərin sevinc və həyəcanla gözlədiyi yeni dərs ili gəlir. Muxtar respublikamızda keçirilən ənənəvi məktəbli yarmarkalarına artıq bir neçə gündür, start verildiyindən bu günlərdə məktəbli uşağı olan hər bir valideyni övladı ilə birlikdə dərs ləvazimatları alarkən görmək olar.*



Naxçıvan şəhərindəki Mərkəzi bazarda keçirilən ənənəvi məktəbli yarmarkasında yaradılan şəraitlə tanış olmaq üçün adıçəkilən ünvana yollanıram. Yarmarkada hər il olduğu kimi, bu il də çeşid zənginliyi elə ilk baxışdan diqqətimi çəkir. Öyrənirəm ki, 3-ü istehsal müəssisəsi olmaqla, 24 sahibkarlıq subyektinin iştirak etdiyi yarmarkada dərs ləvazimatları, məktəbli və idman formaları, məktəbli çantaları və ayaqqabıları alıcılara münasib qiymətlərlə təklif olunur. Yarmarkada ayrı-ayrı fənlər üzrə əyani vəsaitlərin satışı da həyata keçirilir. Burada lüğət və digər nəşrlərin, dünya uşaq ədəbiyyatı nümunələrinin, bədii və elmi ədəbiyyatların satışına da yer verilib.

Xüsusi zövqlə bəzənən vitrinlərin önündə dərs ləvazimatları seçən valideyn və məktəblilərin çöhrəsindəki təbəssümü gördükcə qeyri-ixtiyari fikirləşirəm ki, vaxtilə tədris ilinin başlanmasına iki ay qalmış övladı məktəbə gedən hər valideyni bir məsələ dərin düşündürürdü: Uşağına lazım olan məktəbli ləvazimatlarını hardan əldə etsin ki, qiyməti sərfəli, özü də keyfiyyətli olsun. Bunun üçün həftələr öncəsindən alış-veriş köşklərinə üz tutan ata və ana çeşid kasadlığından bəzən, necə deyərlər, evə əliboş qayıdardılar. Digər tərəfdən qiymətin münasib və tarazlı olmaması valideynləri maddi cəhətdən sıxıntıya salırdı. Lakin vətəndaşına, onun layiqli yaşamasına, yüksək təhsilli yetişməsinə böyük önəm verən dövlətimiz bütün sahələrdə olduğu kimi, bu istiqamətdə də lazımi addımları atdı və artıq ənənə halını alan məktəbli yarmarkaları hər il bütün ailələrə sevinc payı bəxş edir.

Məktəbli yarmarkasında alış-verişlə məşğul olan insanları müşahidə etdikdən sonra vitrinlərdən birinə yaxınlaşıb satıcılarla söhbət edirəm. 50 illik ömrünün çox hissəsini ticarət işlərinə həsr edən Kərəm Qocayev deyir ki, illər öncə muxtar respublikaya gətirilən məktəbli ləvazimatları satıcının istəyinə uyğun olaraq istənilən qiymətə alıcıya təklif olunurdu. Alıcı da çox zaman ucuz olsun deyə, keyfiyyətsiz məhsullara üstünlük verirdi. Təbii ki, həmin ləvazimatlar keyfiyyətsiz olduğu üçün qısa müddət sonra sıradan çıxır, əlavə xərclərə yol açırdı. Bu hal təkcə alıcılara deyil, həm də keyfiyyətli məhsul satışa çıxaran sahibkarlara da sərf etmirdi. Lakin bir neçə ildir, təşkil olunan məktəbli yarmarkalarında həm keyfiyyətə, həm də qiymətə nəzarət olunduğundan belə xoşagəlməz hallara yol verilmir.

Yaşı 55-i ötmüş Ruqiyyə Allahverdiyeva deyir ki, artıq bir neçə ildir, nəvələrim üçün dərs ləvazimatlarını burada təşkil olunan məktəbli yarmarkasından əldə edirəm: – Səkkiz nəvəm var. Onlardan ikisi 3-cü sinifdə oxuyur, biri isə bu il məktəbə gedəcək. Burada hər yaşdan olan uşaqlar üçün kitab çeşidləri çoxdur. Balaca nəvələrimə kiçik nağıllar kitabı aldım. Belə kitabları əvvəllər satış mərkəzlərindən əldə etdiyim üçün deyə bilərəm ki, yarmarkada qiymətlər sərfəlidir. Yaradılan bu şəraitə görə dövlətimizə minnətdaram.

Alıcı Fikrət Hacıyev bildirir ki, övladı bu il məktəbin birinci sinfinə qədəm qoyacaq. Uşağına lazım olan məktəbli ləvazimatlarını haradan alacağı barədə çox düşünməli olub, ta ki bu yarmarkaya gələnədək. Yarmarkada onun seçim etməyi üçün hər cür şəraitin olduğunu vurğulayan müsahibim deyir ki, yaradılan bu imkanlar hər bir valideyn kimi onun ürəyincədir.

Digər müsahibim isə yarmarkanın imkanlarından yararlanan Qorxmaz Baxşəliyevdir. O, bizimlə söhbətində deyir: – Məktəbli yarmarkasının keçiriləcəyi günü bütün valideynlər kimi mən də səbirsizliklə gözləyirdim. Əvvəllər satış mərkəzlərindən istifadə etsəm də, iki il olar yarmarkaya üz tuturam. Burada qiymətlərin münasib olması ailə büdcəmin stabil qalmasına imkan verir. Yarmarkanı təşkil edənlərə ailəmiz adından minnətdaram.

Övladına məktəbli çantası almaq istəyən Yasin Qurbanovun sözlərinə görə, yarmarkadakı qiymətlər bazar qiymətlərindən aşağı, çeşid isə çoxdur: – Burada satılan ləvazimatlar müxtəlif çeşidli olduğuna görə seçim imkanı da genişdir. Məhsulların qiyməti ilə yanaşı, keyfiyyəti də önəmlidir. Hər bir alıcıya satılan məhsullar haqda nəzakətlə, dolğun məlumat verilir və bu da rahat şəkildə seçim etmək imkanı yaradır.

Qeyd edək ki, məktəbli yarmarkası Naxçıvan şəhəri ilə yanaşı, muxtar respublikamızın rayonlarında da təşkil olunur və sentyabr ayının 15-dək davam edəcək.

✍ **Nail ƏSGƏROV**

# Test imtahanları keçirilib



*2018-ci il dekabrın 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr haqqında" keçirilən müşavirədə verilən tapşırıq və tövsiyələrə əsasən muxtar respublikada digər idman növləri kimi, şahmatın da inkişafı, uşaq və yeniyetmələr arasında kütləvi hal alması üçün mühüm tədbirlər həyata keçirilir.*

Muxtar respublikada şahmatın tədrisinin keyfiyyətinin yaxşılaşdırılması və müəllimlərin peşəkarlıq səviyyəsinin yoxlanılması məqsədilə dünən şahmat fənnini tədris edən müəllimlərin sertifikasiyası üzrə test imtahanı keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın Test mərkəzində keçirilən imtahanda iştirak etmək üçün 95 müəllim qeydiyyatdan keçib. Onlardan 93-ü test imtahanında iştirak edib və 83-ü müvafiq keçid balını toplayıb.

Test imtahanında iştirakçılara 40 sual təqdim edilib, sualları cavablandırmaq üçün isə 60 dəqiqə vaxt verilib. İmtahanda test tapşırıqlarının ən azı 50 faizini (20 bal) düzgün cavablandırmış şəxslər müvafiq keçid balını toplamış hesab olunurlar. Şahmat fənni üzrə aparılan test imtahanı elektron proqram təminatı vasitəsilə keçirilib. Bununla da test suallarını cavablandırarkən iştirakçılar seçdikləri cavabları imtahan vaxtı ərzində dəyişə və monitorda imtahanın vaxtını izləyə biliblər. Obyektivliyin və şəffaflığın tam təmin edilməsi məqsədilə imtahanın videoçəkilişi də aparılıb. Test imtahanı bitdikdən dərhal sonra iştirakçılara nəticələrə dair arayış təqdim edilib. Həmin nəticələr komissiyanın rəsmi internet portalında *(www.dqmk.nmr.az)* yerləşdirilib.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti**

# Növbəti metodik toplantı olub



*Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin təşkilatçılığı ilə Ordubad rayon ümumtəhsil məktəblərinin ikinci, beşinci və altıncı siniflərinin rəhbərləri ilə tədris-metodik toplantı keçirilib.*

Ordubad Rayon Mədəniyyət Evində keçirilən tədbirdə əsas məqsəd yeni tədris ilinə hazırlıqla bağlı ümumtəhsil məktəblərində tədris olunan mülki müdafiə dərslərinin keyfiyyətini yaxşılaşdırmaq, müəllimlərin bu sahə üzrə pedaqoji səviyyələrini artırmaqdan ibarətdir.

Tədbirdə Fövqəladə Hallar Nazirliyinin Mülki müdafiə işinin təşkili şöbəsinin rəisi, polkovnik Emin Qasımov çıxış edərək bildirib ki, təsdiq olunmuş tədris proqramı əsasında ümumtəhsil məktəblərinin ikinci siniflərində mülki müdafiə dərsləri 6 saat, 5-ci və 6-cı siniflərdə isə 8 saat həcmində keçilir. Mülki müdafiə fənni 2-ci və 5-ci siniflərdə tədris ilinin ikinci, 6-cı siniflərdə isə birinci yarım ilində tədris olunur.

Vurğulanıb ki, mülki müdafiə dərslərinin keçilməsinin xüsusiyyəti öyrədilən materialın praktik təmayülə malik olmasıdır. Dərslər zamanı şagirdlərin fərdi xarakterləri nəzərə alınmaqla onlarda mülki müdafiə fənninə maraq artırmaq mümkündür. Bu məqsədlə Mülki müdafiə işinin təşkili şöbəsi tərəfindən müvafiq təlimatlar hazırlanıb, əyani vəsaitlər, slaydlar və videomateriallar məktəblərə təqdim olunub.

Sonra bir sıra mövzularda mühazirələr dinlənilib, müəllimləri maraqlandıran suallar cavablandırılıb.

**Xəbərlər şöbəsi**

# Günəş Günay: Naxçıvan təhlükəsiz və yaşamaq üçün möhtəşəm şəhərdir




***Naxçıvanın təmiz havası, təbii gözəllikləri, gəzməli-görməli yerləri buraya gələn turistlərin sayını ilbəil artırır. Onların bir çoxu səyahətdən aldıqları təəssüratlarını müxtəlif sosial şəbəkələr vasitəsilə bölüşürlər. Bu yaxınlarda "Youtube" sosial şəbəkəsində Naxçıvanla bağlı bir neçə videoya rast gəldim. Paylaşmaların Günəş və Haluk Günay ailəsinə məxsus olduğunu öyrənib, onlarla əlaqə yaratdım. Günəş xanım iyul ayında Türkiyənin İzmir şəhərindən Naxçıvana səyahətə gəldiklərini bildirdi.***

Onun yazdıqlarından: "İlk dəfə idi, Naxçıvana gəlirdik. Əslində, uzun bir səyahət planımız var idi. Türkiyənin bir çox şəhərindən keçib İqdıra gəldik və qısa bir yolçuluqdan sonra bu gözəl diyara çatdıq. Yaxşı ki, gəldik, – dedik Naxçıvana ayaq basan andan. Çünki burada türk olduğumuzu bilən hər kəs bizə "Bir millət, iki dövlət", – dedi gülümsəyərək. Naxçıvana gəlməklə daha nizamlı, daha təmiz və fərqli bir yer gördük. Bir günlüyə gəlmişdik, əvvəlcə 3 gün burada olmaq istədik, buranın möhtəşəm gözəlliklərini gördükdən sonra 8 gün qalmağa qərar verdik. Daha çox qalmaq istəyirdik, lakin maşınımız üçün aldığımız vizanın vaxtı bitirdi. Gəzə bildiyimiz qədər hər yeri gəzməyə çalışdıq. Ordubadda ölkə əhəmiyyətli Azərbaycan memarlıq abidəsi "Qeysəriyyə"də olduq. Burada bölgənin tarixi haqqında geniş məlumat ala bildik. Bu tarixi şəhərin keçmişdə ticarət və ipəkçilik mərkəzi olduğunu öyrənib çox sevindik. Diqqətimizi ən çox meyvə ağaclarının sərbəst, əlçatan yerlərdə əkilmiş olması çəkdi. İnsanların istədiyimiz qədər meyvə toplayıb yeyə biləcəyimizi söyləmələri bizi təəccübləndirdi, meyvələrin dadını, ləzzətini çox bəyəndik. Ordubad bazarına da getdik. Burada bibərin dənə ilə satıcıya təklif olunması bizə maraqlı gəldi. Əkinçilikdə müxtəlif dərman vasitələrindən istifadə edilməməsi səbəbi ilə uzun zamandır, yemədiyimiz ləzzətli tərəvəz və meyvələrdən daddıq. Ordubadda həyatımızda ilk dəfə ən uzun və yaşlı çinar ağaclarını gördük. Gəmiqaya ətəklərinə qalxmağı çox istədik, ancaq havanın isti olması və yaşımız səbəbi ilə ayaqla çıxa bilmədik. Bizim maşınımızla da ora çıxmaq olmaz, – dedilər. Çox arzulayırdıq ki, oranı görək, amma nə edə bilərdik...

Muxtar respublikanın Culfa, Babək, Şərur, Kəngərli, Sədərək rayonlarına da getdik, Heydərabad qəsəbəsi, Çalxanqala, Qarabağlar kəndlərində olduq. Gülüstan, Fəzlullah Nəimi və Qarabağlar türbələrini, Əlincəqala, Əshabi-Kəhf, Batabat, Duzdağ kimi məşhur yerləri gəzdik. Bu yerlər möhtəşəmdir, hamı mütləq bircə dəfə də olsa, gəlib Naxçıvanı görməlidir. Getdiyimiz rayon və kəndlərdə diqqətimizi abad yollar, müasir məktəblər çəkdi. Orta təhsil verən məktəblərlə yanaşı, ayrı-ayrı şahmat, musiqi, idman məktəbləri, eləcə də müxtəlif təhsil platformaları onu göstərirdi ki, bu yerlərdə yaxşı oxumaq üçün lazımi şərait yaradılıb.



Naxçıvanda ən çox diqqətimizi çəkən isə şəhərin ümumi görüntüsü idi. Küçələr geniş, qarşılaşdığımız insanlar səmimi, gülərüz, ekskursiya edilməli yerlər pulsuz, hər yer tər-təmiz, bir sözlə, yaşamaq üçün möhtəşəm bir yer. Bir gün Naxçıvandakı Xan sarayının bağçasında səhər yeməyi yedik, sonra sarayı gəzdik və buradan Şərq memarlığının incisi, tarixi Möminə xatın türbəsini seyr etdik. Naxçıvandakı Cümə məscidi, Şərq hamamında olduq. Onu deyərdim ki, buranın tarixi məkanları gəzmək üçün çox gözəl yerlərdir. Naxçıvanda özümüzü çox rahat, əminlikdə hiss etdik. İlk gecə bir az narahat olsaq da, növbəti yeddi gündə pəncərələrimiz açıq olurdu, çünki bura, mən deyərdim, dünyanın ən təhlükəsiz şəhərlərindən biridir.

Yollardakı qayda-qanun, insanlara xidmət edən taksi sürücülərinin səliqəli formada və tər-təmiz geyimləri diqqəti cəlb edən əsas məsələlər idi. Gəzdiyimiz kəndlərdən birində tanış olduğumuz Naxçıvan polisi də bizdə onların çox yardımsevər, işinə bağlı, doğru-düzgün insanlar olduğu təəssüratını yaratdı. Naxçıvan şəhərindəki məşhur bazara da getdik. Burada yerli insanların öz zəhmətləri hesabına ərsəyə gətirdikləri məhsullar və dağlardan toplanılan sağlamlıq üçün faydalı olan bitkilər satılırdı. Biz də bir neçə məhsuldan aldıq.

Naxçıvan mətbəxi haqqında isə onu deyə bilərəm ki, İqdır və ya Şərqi-Bəyazit mətbəxi ilə müəyyən bənzərlikləri vardır. Lakin Naxçıvan şəhəri və Babəkdə olan restoranlardan birində nahar etdik. Gördük ki, buranın özünəməxsus yeməkləri var. Onlar öz dadı və ləzzəti ilə seçilir.

Naxçıvanda gördüyümüz gözəllikləri paylaşmasaq olmaz, – deyə düşündük. "Youtube" kanalımızda muxtar respublikada gəzib-gördüyümüz yerləri paylaşandan sonra bu diyarın həqiqətən çox sevildiyinin şahidi olduq və həmin videolar barədə çox müsbət rəylər aldıq. İndi biz Naxçıvana növbəti səfərimizi səbirsizliklə gözləyirik".

Doğma diyarımızla bağlı bu xoş təəssüratlardan qürur duymamaq mümkün deyil. Yurdumuz haqqında belə xoş sözləri eşidəndə bir gənc olaraq Naxçıvanda doğulub yaşamağımla fəxr edirəm. Fəxr edirəm ki, mən naxçıvanlıyam.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

# Dövlət qayğısı qadınların yaradıcılıq imkanlarını daha da genişləndirir

*Muxtar respublikamızda qadınlara göstərilən yüksək diqqət və qayğının nəticəsində onlara mədəniyyət, elm, təhsil, səhiyyə və digər istiqamətlərdə istedad və bacarıqlarını gerçəkləşdirmək üçün əlverişli şərait yaradılıb. Bu qayğıdan bəhrələnən qadınlar milli müstəqillik və dövlətçilik ideyaları ətrafında sıx birləşərək ölkəmizin, eləcə də muxtar respublikamızın sosial-iqtisadi, elmi-intellektual potensialının artırılmasına, mədəniyyətimizin inkişafına layiqli töhfələrini verməklə yanaşı, milli-mənəvi dəyərlərimizin qoruyucuları, adət-ənənələrimizin yaşadıcıları kimi də əllərindən gələni əsirgəmir, öz bacarığı, qabiliyyəti ilə xalqımızın milli-mənəvi dəyərlər sisteminin formalaşmasında müstəsna rol oynayırlar.*

Elə bu gün haqqında bəhs edəcəyimiz Züriyyə Musayeva da fiziki məhdudiyyətlərinə baxmayaraq, yaradılmış şəraitdən layiqincə yararlanan və milli mədəniyyətimizin inkişafına öz töhfəsini verən qadınlarımızdandır.

Züriyyə Musayeva 1972-ci ildə Naxçıvan şəhərində anadan olub. Hələ uşaqlıqdan incəsənətə maraq göstərib və bir peşəkar kimi yetişməsində nənəsinin böyük rolu olub. O, tətbiqi incəsənətin bir çox nümunələrini zövqlə yaradaraq milli dəyərlərimizi təbliğ edir. Züriyyə xanım muxtar respublikamızda təşkil olunan sərgilərdə fəal iştirakı ilə seçilir. Yaradıcılığının əsasını xalçalar və milli üslubda hazırlanmış geyim, bəzək aksesuarları təşkil edir. Bununla yanaşı, o, bədii tikmə sənəti və keramika rəssamlığı ilə də məşğuldur.

Artıq 20 ildən çoxdur ki, bu işlə məşğul olan Züriyyə Musayeva ilə ilk dəfə "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksində Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin nəzdində fəaliyyət göstərən Tətbiqi sənət əsərləri, tarix və mədəniyyətimizlə bağlı müxtəlif növ məhsulların sərgi-satış mərkəzində görüşmüşdük. Onun hər bir əl işinə diqqətlə baxanda açıq-aydın gördüm ki, ilmələrdə, naxışlarda, ornamentlərdə bu torpağın hər qarışının, xalqımızın mədəniyyətinin, incəsənətinin, tarixinin, etnoqrafiyasının izləri var. Eyni zamanda bu əsərlər Züriyyə xanımın fərqli bir istedada,



əl qabiliyyətinə, incə zövq və fantaziyaya malik olduğunu təsdiq edirdi. Bu təəssüratlar sonralar onun yaradıcılığı ilə daha yaxından maraqlanmağıma səbəb oldu.

Beş yaşından bəri toxuma işlərini öyrənməyə çalışan Züriyyə xanımın bu yolda ilk müəllimi, yuxarıda da qeyd etdiyimiz kimi, nənəsi olub. Deyir ki, nənəm, əsasən, palaz toxumaqla məşğul olurdu. Sonradan ondan palazın bir çox növlərini – dolama palaz, vərni, kilim və digərlərini toxumağı öyrəndim. Bununla yanaşı, tikmə, yandırma, xalçatoxuma da məşğul olduğum sahələrdəndir. Deyir ki, bu gün Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə Naxçıvanda fiziki məhdudiyyəti olan insanlara hərtərəfli dəstək göstərilir. Xüsusi istedadları ilə seçilən qadınlar üçün lazımi şərait yaradılır. Onların məşğulluğu təmin edilir, sosial-rifah hallarının yüksəldilməsi üçün əl işlərinin sərgi-satışları təşkil olunur.

Onu da xüsusi vurğulamaq lazımdır ki, Ali Məclis Sədrinin diqqət və qayğısı sayəsində muxtar respublikada xalçaçı, dərzi, ağac üzərində oyma kimi peşə kursları təşkil olunur ki, bu kurslara sağlamlıq imkanları məhdud qadınlar da cəlb edilir. Onlara istər texniki köməklik, istərsə də mənəvi dəstək göstərilməsi, hazırladıqları əl işlərindən ibarət sərgilərin təşkili də diqqət mərkəzində saxlanılır. Elə bunun nəticəsidir ki, Züriyyə Musayeva indiyədək bir çox sərgilərdə iştirak edib, müxtəlif mükafatlara layiq görülüb.

Müsahibim ötən əsrin 90-cı illərində Naxçıvanın çətin günlərini xatırlayarkən kədərlənsə də, bu günün xoş təəssüratlarını bizimlə bölüşərkən üzündəki təbəssümü sezməmək olmur. Onun dediklərindən: "O zamanlar bizim kimi sağlamlıq imkanları məhdud insanlar taleyin onlara qismət etdiyi ağır sınağın çətinliklərinə boyun əyib, həyata küskün, diqqətdənkənar, ümidsiz, qayğısız ömür yaşamağa məcbur olurdular. Ancaq bu gün onların sosial şəraitinin yaxşılaşdırılması, məşğulluq imkanlarının artırılması istiqamətində muxtar respublikamızda davamlı işlər aparılır, cəmiyyətə inteqrasiyaları, reabilitasiyaları üçün lazımi şərait yaradılır. Bu isə bizi həyata daha sıx tellərlə bağlayır, həyatsevərlik əzmimizi daha da artırır".

Bəli, həqiqətən, bu gün muxtar respublikamızda bir çox dövlət qurumları, o cümlədən Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi bu sahədə ardıcıl tədbirlər həyata keçirirlər. Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi tərəfindən xüsusi istedada malik insanların üzə çıxarılması və digər qurumlarla birgə fəaliyyəti nəticəsində belə istedadlı qadınlarımızın əməyi dəyərləndirilir, onların yaradıcılıq imkanları genişləndirilir.

Həyatda sağlam, fiziki qabiliyyətli yaşamaq hər kəsin qismətində olmur. Bəziləri dünyaya göz açarkən, bəziləri isə sonradan müxtəlif hadisələr nəticəsində sağlamlıqlarından məhrum olurlar. Ancaq dövlətimizin bu qəbildən olan insanlara qayğıkeş münasibəti nəticəsində onların yaşamaq, qurub-yaratmaq əzminin nə qədər yüksək olduğunu görməmək mümkün deyil. Züriyyə Musayeva sonda onu dedi ki, bu gün biz qadınların taleyinə qədim diyarımızın tarixinin qızıl hərflərlə yazılmış dövründə yaşamaq, baş verən yeniliklərin şahidi olmaq qisməti düşüb. Muxtar respublikamızın gündən-günə tərəqqi etməsi, bütün sahələrin inkişafı, milli və mənəvi irsimizin qorunması istiqamətində görülən işlər gözlərimizin önündə baş verir. Buna görə də yaradıcı insan kimi biz bu irsi inkişaf etdirməli, onu qoruyub gələcək nəsillərə çatdırmalıyıq.

Həqiqətən də, bu gün muxtar respublikamızda sağlamlıq imkanları məhdud istedadlı şəxslərə dövlətimizin hərtərəfli dəstəyi milli dəyərlərimizin qorunmasına və təbliğinə geniş imkanlar açır. İnanırıq ki, Züriyyə Musayeva kimi zəhmətkeş qadınlarımızın bu dəyərlərimizə verəcəyi töhfələr hələ qabaqdadır.

✍ **Gülcamal TAHİROVA**

*Yeni nəşrlər*

# "Təbriz teatrı və Böyükxan Naxçıvanski"




AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Musiqi və teatr şöbəsinin müdiri, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Əli Qəhrəmanovun "Təbriz teatrı və Böyükxan Naxçıvanski" adlı monoqrafiyası işıq üzü görüb.

Monoqrafiyada Təbriz teatrı haqqında aşkara çıxarılan yeni tarixi faktlar tədqiqata cəlb edilib, bu mədəniyyət ocağının görkəmli aktyor və rejissorları barədə məlumat verilib, Təbrizdə teatr dəstələrinin yaranması və fəaliyyətindən bəhs olunub.

Kitabda qeyd olunur ki, xalqın mədəni intibahı, milli oyanışı və maarifçilik düşüncəsinə böyük təsir göstərən Naxçıvan teatrının inkişafında tanınmış mədəniyyət xadimi, teatr fədaisi Böyükxan Naxçıvanskinin də mühüm xidmətləri olub.

Yeni nəşrdə Böyükxan Naxçıvanskinin keçməkeşli ömür və sənət yoluna nəzər salınıb, onun Təbriz teatrının inkişafındakı səmərəli fəaliyyəti işıqlandırılıb. Sənətkarın quruluş verdiyi tamaşaların və oynadığı obrazların əsas məqsəd və qayəsinin maarifçilik ideyalarının xalq arasında təbliğ olunduğu göstərilib.

Qədim Naxçıvanın teatr sənətkarlarının əsrimizin əvvəllərindəki dövrünü tədqiq edən müəllif monoqrafiyada o dövr teatrına aid Təbriz arxivləri, Tiflis teatrı sənədləri və Naxçıvan diyarının qədim teatr tarixini əks etdirən mənbə və arxiv materiallarını üzə çıxarıb.

Qeyd edək ki, yeni nəşrdə o dövrə aid ilk dəfə aşkar olunmuş nadir fotoşəkillər də əksini tapıb.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

## *İtmişdir*

Əhmədli Ayaz Fikrət oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Məmmədova Şəmsiyyə Firqəm qızının adına Culfa rayon Ərəfsə kəndində yerləşən JN-135A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 599